Azərbaycan Respublikası Energetika Nazirliyinin
“ 3 ” oktyabr 2022-ci il tarixli
“F-97” nömrəli Əmri ilə təsdiq edilmişdir.

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi zamanı icrası məcburi olan göstərişlərin verilməsi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nə əsasən hazırlanmışdır və elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində (bundan sonra – **müvafiq sahə**) Enerji Məsələlərini Tənzimləmə Agentliyi (bundan sonra – **Agentlik**) adından icrası məcburi olan göstərişlərin (bundan sonra – **göstəriş**) verilməsi ilə bağlı Agentlikdaxili münasibətləri tənzimləyir.

1.2. Göstəriş verilməsinin məqsədi müvafiq sahəni tənzimləyən hüquqi aktların tələblərinə əməl olunmasını, pozuntuların qarşısının alınmasını və yol verilmiş nöqsanların vaxtında aşkar edilərək aradan qaldırılmasını təmin etməkdir.

1.3. Bu Qaydalarla müəyyən edilən sənədləşmə Agentlikdə tətbiq olunan Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə həyata keçirilir.

1.4. Bu Qaydalarda istifadə edilmiş anlayışlar müvafiq sahəni tənzimləyən normativ hüquqi aktlarda müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Göstərişin verilməsi halları və səbəbləri

2.1. Göstəriş müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların və texniki normativ hüquqi aktların, o cümlədən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 02.02.2005-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadə Qaydaları”nın, 11.02.2020-ci il tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik qurğularının quraşdırılması Qaydası”nın, 30.12.2019-cu il tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”nın, 11.02.2020-ci il tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”nın, 10.06.2005-ci il tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları” və “Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları”nın, 29.07.2019-cu il tarixli 329 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yaşayış, ictimai binaların və mühəndis-kommunikasiya təminatı obyektlərinin elektrik təchizatının etibarlılıq kateqoriyaları”nın, 12.05.2011-ci il tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları”nın, 21.06.1999-cu il tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları”nın, Azərbaycan

Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 02.03.2009-cu il tarixli 17 nömrəli Əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları "Qaz təchizatı. Layihələndirmə normaları"nın (AzDTN 2.13-1) və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 21.08.2017-ci il tarixli 06 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazanxana qurğuları. Layihələndirmə normaları"nın (AzDTN 2.12-1) tələbləri pozulduğu hallarda verilir.

2.2. Göstərişin verilməsinin əsasları aşağıdakılardır:

2.2.1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənməyən hallarda (büdcə təşkilatlarında) müvafiq sahədə həyata keçirilən nəzarət tədbirlərinin nəticələri;

2.2.2. Agentliyə daxil olan müraciətlər əsasında həyata keçirilən nəzarət tədbirlərinin nəticələri;

2.2.3. kütləvi informasiya vasitələrinin və ya sosial şəbəkələrin məlumatları əsasında həyata keçirilən nəzarət tədbirlərinin nəticələri.

## 3. Göstəriş layihəsinin tərtib olunması

3.1. Bu Qaydaların 2.2.2-ci və 2.2.3-cü yarımbəndlərinə əsasən nəzarət tədbirlərinin həyata keçirildiyi gündən gec olmayaraq nəzarət tədbirini həyata keçirən müfəttiş tərəfindən forması bu Qaydaların 1 nömrəli Əlavəsində təsbit edilmiş akt tərtib olunur və nəzarət tədbirinin həyata keçirilməsində iştirak edən bütün şəxslər tərəfindən imzalanır. Aktı imzalamış şəxslər həmin aktdakı məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar. Aktda göstərilən məlumatları təsdiqləyən və nəzarət tədbirinin nəticələri üzrə göstəriş layihəsinin tərtib edilməsi üçün əhəmiyyət kəsb edən sənədlər akta əlavə edilir.

3.2. Akt tərtib edilərkən aşkar edilmiş faktların ardıcıl olaraq aydın və dəqiq şəkildə təsviri, aşkar olunmuş pozuntuların məzmunu, tələbləri pozulmuş hüquqi aktların adı və konkret struktur elementləri qeyd edilir.

3.3. Akt rəsmiləşdirildikdən sonra 1 (bir) iş günü müddətində Agentliyin filial (bundan sonra – **Filial**) rəhbərinə təqdim edilir. Filial rəhbəri tərəfindən 15 (on beş) iş günündən gec olmayaraq akta baxış keçirilir və aşkar olunmuş pozuntular əsaslı hesab edildikdə, onun dərkənarı əsasında pozuntuların aradan qaldırılması məqsədilə nəzarət tədbirini həyata keçirən müfəttiş tərəfindən göstəriş layihəsi tərtib olunur.

## 4. Göstərişin mətninə dair tələblər

4.1. Göstərişdə aşağıdakılar qeyd edilir:

4.1.1. göstərişin rekvizitləri;

4.1.2. Agentliyin hüquqi ünvanı və nəzarət tədbirini həyata keçirən müfəttişinin adı;

4.1.3. göstərişin barəsində verildiyi şəxsdən asılı olaraq, bu Qaydaların 4.2–4.6-cı bəndlərində qeyd olunmuş məlumatlar;

4.1.4. aşkar olunmuş pozuntular, əsaslandırıcı sübutlar və pozulmuş hüquqi aktların adı (onların struktur elementi);

4.1.5. aşkar olunmuş pozuntuların aradan qaldırılması üçün görülməli olan tədbirlər;

4.1.6. pozuntuların aradan qaldırılmasının müddəti.

4.2. Göstəriş hüquqi şəxsə verildikdə onun barəsində aşağıdakı məlumatlar qeyd olunur:

4.2.1. hüquqi şəxslərin dövlət reyestrindən çıxarışa əsasən tam adı;

4.2.2. hüquqi ünvanı;

4.2.3. (fərqlidirsə) fəaliyyət ünvanı;

4.2.4. VÖEN-i.

4.3. Göstəriş bələdiyyə orqanına verildikdə onun barəsində aşağıdakı məlumatlar qeyd edilir:

4.3.1. təsis sənədinə əsasən tam adı;

4.3.2. hüquqi ünvanı;

4.3.3. (fərqlidirsə) fəaliyyət ünvanı;

4.3.4. dövlət reyestrində nömrəsi;

4.3.5. (varsa) VÖEN-i.

4.4. Göstəriş dövlət orqanına verildikdə onun barəsində aşağıdakı məlumatlar qeyd edilir:

4.4.1. təsis sənədinə əsasən tam adı;

4.4.2. hüquqi ünvanı;

4.4.3. (fərqlidirsə) fəaliyyət ünvanı;

4.4.4. VÖEN-i olan yuxarı orqanı fərqlidirsə, yuxarı orqanının tam adı;

4.4.5. VÖEN-i olan yuxarı orqanı fərqlidirsə, yuxarı orqanının hüquqi ünvanı;

4.4.6. dövlət reyestrində nömrəsi;

4.4.7. (varsa) VÖEN-i.

4.5. Göstəriş vəzifəli şəxsə verildikdə onun barəsində aşağıdakı məlumatlar qeyd olunur:

4.5.1. adı, atasının adı, soyadı;

4.5.2. vəzifəsi;

4.5.3. qeydiyyat ünvanı;

4.5.4. fərdi sahibkardırsa və fəaliyyət ünvanı fərqlidirsə, fəaliyyət ünvanı;

4.5.5. fərdi sahibkardırsa, VÖEN-i.

4.6. Göstəriş fiziki şəxsə verildikdə onun barəsində aşağıdakı məlumatlar qeyd olunur:

4.6.1. adı, atasının adı, soyadı;

4.6.2. qeydiyyat ünvanı;

4.6.3. (fərqlidirsə) yaşayış ünvanı.

4.7. Göstərişin rekvizitləri aşağıdakılardır:

4.7.1. göstərişin tarixi;

4.7.2. göstərişin nömrəsi;

4.7.3. göstərişi imzalayan şəxsin vəzifəsi, adı və soyadı;

4.7.4. göstərişi imzalayan şəxsin imzası;

4.7.5. göstəriş Filial tərəfindən verilərsə, Filialın gerbli möhürü, Agentliyin Aparatı tərəfindən verilərsə, Agentliyin gerbli möhürü.

## 5. Göstərişin imzalanması və rəsmi təqdim edilməsi

5.1. Göstəriş göndərilən (xaric olan) sənəd blankında çap olunur və Filialda Filialın rəhbəri, Agentliyin Aparatında isə Agentliyin Enerji tənzimləmə və monitorinq departamentinin (bundan sonra – **TMD**) direktoru tərəfindən imzalanır. Göndərilən (xaric olan) sənədin nömrəsi və tarixi göstərişin nömrəsi və tarixi hesab olunur.

5.2. Göstəriş ya birbaşa təqdim olunur, ya da xəbərnaməli şifarişli poçt vasitəsilə göndərilir.

## 6. Göstərişin icrasına nəzarət

6.1. Filiallar tərəfindən verilən göstərişlərin icrası daimi nəzarətdə saxlanılır.

6.2. Göstərişdə qeyd edilən pozuntuların aradan qaldırılması üçün müəyyən edilmiş müddət tamam olduqdan 5 (beş) iş günü ərzində həmin göstərişin icra olunduğu barədə məlumat daxil olmadıqda Filial rəhbəri tərəfindən 3 (üç) iş günü ərzində həmin göstərişlərə əməl etməyən nəzarət olunanın yuxarı qurumlarına müraciət olunmasına və ya plandankənar (növbədənkənar) nəzarət tədbirlərinin həyata keçirilməsinə dair TMD direktoruna təqdimatla müraciət olunur.

6.3. TMD direktoru Filial rəhbəri tərəfindən verilmiş təqdimata 3 (üç) iş günü ərzində baxaraq:

6.3.1. əsaslandırma ilə razı olmadıqda səbəbi göstərilməklə imtina edir;

6.3.2. əsaslandırma ilə razı olduqda, nəzarət olunanın yuxarı qurumlarına müraciət olunması və ya plandankənar (növbədənkənar) nəzarət tədbirinin həyata keçirilməsinə razılıq verir.

6.4. Göstərişin tələblərinin üzrlü səbəb olmadan müəyyən olunmuş icra müddətində tam yerinə yetirilməməsi, təqsirkar şəxslərə qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xəta haqqında iş üzrə icraata başlanılması üçün əsasdır.

## 7. Hesabatlılıq

Agentliyin filialları tərəfindən ay ərzində verilmiş göstərişlər və onlar əsasında görülmüş tədbirlər barədə hər növbəti ayın 2-dək bu Qaydaların 2 nömrəli Əlavəsi ilə müəyyən olunmuş formada TMD-yə aylıq hesabat təqdim edilir.

**"Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi zamanı icrası məcburi olan göstərişlərin verilməsi Qaydaları"na**

**1 nömrəli Əlavə**

**Azərbaycan Respublikasının Energetika Nazirliyi**
**Enerji Məsələlərini Tənzimləmə Agentliyi**
**Nəzarət tədbirinin həyata keçirilməsinə dair**

**AKT № ___________**

«___»______________20__ il ___________şəhəri (rayonu)

Nəzarət olunanın adı və VÖEN:

______________________________________________________________

______________________________________________________________

Nəzarət olunan təsərrüfat obyektinin (obyektlərinin) ünvanı:

______________________________________________________________

______________________________________________________________

Nəzarət tədbirini həyata keçirənin (keçirənlərin) soyadı, adı, atasının adı və vəzifəsi:

______________________________________________________________

______________________________________________________________

Nəzarət tədbiri zamanı aşkar olunmuş faktların aydın və dəqiq şəkildə təsviri:

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

Nəzarət olunanın iradı və ya etirazı (əgər varsa):

______________________________________________________________

______________________________________________________________

Akta əlavə edilən sənədlərin siyahısı:

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

Aktı tərtib edən nəzarət tədbirini həyata keçirənin (keçirənlərin) imzası:

_______________ ______________________________

(imza) (adı və soyadı)

_______________ ______________________________

(imza) (adı və soyadı)

Nəzarət olunanın və ya onun nümayəndəsinin imzası:

_______________ ______________________________

(imza) (adı, soyadı və vəzifəsi)

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarət tədbirinin həyata keçirilməsi zamanı icrası məcburi olan göstərişlərin verilməsi Qaydaları”na**

**2 nömrəli Əlavə**

**20____ ilin ________ ayı ərzində Agentliyin __________ filialı tərəfindən verilmiş icrası məcburi olan göstərişlər barədə**
**HESABAT**

| **S/s** | **Göstəriş verilən şəxs** | **Göstərişin nömrəsi və tarixi** | **Göstərişin məzmunu** | **Göstərişi tərtib edənin adı və soyadı** | **Göstərişin icrası barədə məlumat** |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |